KREDO
№35 (1115) 31 avqust 2022-ci il

# QONAĞIMIZ VAR...






Bakı şəhər Mədəniyyət Baş İdarəsinin "Qonağımız var" layihəsinə bu dəfə Yasamal rayon MKS-nin 4 nömrəli filialı X.B. Natəvan adına kitabxanasında 11 avqust 2022-ci il tarixində şairə-publisist AYB və AJB üzlü Gülarə Munislə görüş keçirildi. İsti yay günü olmasına baxmayaraq kitabxananın föyesi qonaqlarla dolu idi.

Gülarə Munisin qələm dostları, tanınmış ziyalılar, "Kredo" qəzetinin baş redaktoru şair-publisist Əli Rza Xələfli, Dədə Qorqud Fondu "Azərbaycan Dünyası" Beynəlxalq jurnalının təsisçi və baş redaktoru Eldar İsmayılov, şairə-publisist, "Azad Qələm" qəzeti və jurnalının baş redaktoru, Prezident təqaüdçüsü Nəcibə İlkin, şairə Mərcan Şahbuzlu, şairə Güləmail Murad, Xəzər r-nu 125 saylı orta məktəbin direktoru Zeynəb Axundova, Xəzər r-nu MKS 3 saylı Buzovna filialının əməkdaşları Ülviyyə Xudaverdiyeva, Hicran Zeynalova, Sabunçu r-nu 148 saylı orta məktəbin müəllim və məktəbliləri, 75 saylı məktəbin müəllim və məktəbliləri, Buzovna Beyləqan rayonu 1-ci Şahsevən kəndi Əli Rüstəmov adına 2 nömrəli məktəbin ədəbiyyat müəllimi Rəşidə xanım Allahverdiyeva tədbirdə iştirak edirdilər. Tədbir Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlandı. Sonra bir dəqiqəlik sükutla Vətən yolunda canını qurban vermiş şəhidlərin xatirəsi yad edildi. Kitabxananın əməkdaşları Zərəngiz Mansurova və İradə Hüseynova tədbiri açıq elan edib G. Munisin yaradıcılığı barədə geniş məlumat verdi.




75 saylı və 148 saylı məktəblərin şagirdləri Gülarə Munisin vətənpərvərlik mövzusunda yazdığı şeirləri əzbər söylədilər. Çıxış edənlər Gülarə Munisin yaradıcılığının çoxşaxəli olduğunu qeyd edib onun həm uşaq ədəbiyyatı ilə, həm Milli Qəhrəmanlar, şəhidlər və Qarabağ qaziləri barədə yazdığı kitablardan söz açdılar. G.Munisin mənsur şeirləri, "Munisin deyimləri" adlı aforizmlər kitabı barədə tədbir iştirakçılarına məlumat verildi. Şərqdə Azəri türkcəsində ilk "Divan" kitabı yazan şairənin "İkinci Divan" kitabı artıq çapdadır.

125 saylı orta məktəbin direktoru Zeynəb Axundova müəllifin əsərlərinin 2-ci sinifdən 11-ci sinifə qədər müxtəlif vaxtlarda dərsliklərə daxil edildiyini qeyd etdi. Məktəblərdə G.Munislə keçirilən maraqlı görüşlərdən söz açdı. Zeynəb xanım əsərləri dərsliklərə düşən müəlliflərlə şagirdlərin görüşünün təşkil olunması məktəblilərdə ədəbiyyata, mütaliəyə maraq oyatdığını da diqqətə çatdırdı. Beyləqandan gələn Rəşidə xanım Allahverdiyeva G.Munisin 8-ci sinifin dərsliyinə daxil edilmiş "Nar dənəsi" adlı vətənpərvərlik mövzusunda olan hekayəsi əsasında Təhsil İdarəsinin razılığı ilə Beyləqan məktəblərinin 8-ci sinifləri arasında keçirilən müsabiqədən danışdı və müəllifin qaliblərə öz kitablarını göndərdiyini qeyd etdi.




Dədə Qorqud Fondu "Azərbaycan Dünyası" Beynəlxalq jurnalının təsisçi və baş redaktoru Eldar İsmayılov şəhid oğullar barədə yazdığı kitablara görə Gülarə Munisi "Mehriban Ana" medalı ilə təltif etdi.

Sonda Gülarə Munis "Divan" kitabından bir neçə qəzəlini səsləndirdi və tədbirin hazırlanmasında zəhməti olanlara və gələn qonaqlara minnətdarlığını bildirdi.

"Qonağımız var" adlı layihənin daha bir qonağı ilə təşkil olunmuş tədbir xatirələrdə dərin bir iz qoydu.

***Elvin KAMAL***